# Munis Şərifov



"Kamançanı dünyaya professional alət kimi azərbaycanlılar daha çox tanıdıb"

O görkəmli xanəndə İslam Rzayevin rəhbərlik etdiyi instrumental ansamblda solist və müşayiətçi, birinci kamança ifaçısı kimi peşəkar karyerasına başlayıb. 1986-cı ildən 1990-cı ilə qədər Azərbaycan Dövlət Konsert Birliyində solist və müşayiətçi kamança ifaçısı vəzifəsində çalışıb. 1985-ci ildə Moskva şəhərində keçirilən Gənclərin və Tələbələrin 12-ci Beynəlxalq Festivalının diplomçusu olub. 1980-ci ildən bu günə qədər Bakı Musiqi Akademiyasında və Azərbaycan Milli Konservatoriyasında kamança tədrisi üzrə müəllim vəzifəsində çalışır və həmçinin Azərbaycan Respublikasının Xalq Artisti, professor Arif Babayevin muğam sinfində müşayiətçi konsertmeyster işləyir.

Həmçinin Bakı Musiqi Akademiyasında qədim milli musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi elmi laboratoriyasında elmi işçi kimi fəaliyyət göstərir. Müsahibim Azərbaycanın tanınmış kaman ifaçısı və qədim musiqi alətimiz olan çəqanənin yeganə ifaçısı əməkdar artist Munis Şərifovdur. Dünyanın bir çox ölkələrində Azərbaycanın milli musiqilərini və qədim alətlərini təmsil edən müsahibimizin sözlərinə görə, kamança və çəqanə bu gün dəbdə olan kamanla çalınan bir çox alətlərdən üstündür.

- Kamança dünyada tanınmış alətdir. Onu dünyaya professional alət kimi azərbaycanlılar daha çox tanıdıb. Şərq musiqi alətləri içində kamança və tar bizdə xüsusilə inkişaf edib. Çünki bu alətlər Konservatoriya səviyyəsində tədris olunur. Kamançada muğamlarımız, xalq musiqilərimiz, rəqslərimiz ifa olunur.

**- Sizin haqqınızda məlumat toplayanda maraqlı bir fakt diqqətimi çəkdi. Uşaq vaxtı kamançaya elə də həvəsiniz yoxmuş. Hətta çətinliyindən şikayətçi də olmusunuz.**

- Mən Şirvan bölgəsinin Ağdaş şəhərində doğulmuşam. Atam müəllim idi. Musiqiyə çox böyük həvəsi var idi, özü də ara- sıra tar çalardı. O məsləhət bildi ki, mən milli alətlərdən birində ifa edim. Bir gün kamança aldı. İki ay kamançaya getdim, amma deyim ki, heç həvəsim yox idi, çünki çox çətin idi. Deyim ki, kamança gözəl olduğu qədər də çətin alətdir. Pərdəsi yoxdur, notlar məlum deyil, dizdə saxlamaq çətindir. Gərək ifaçının səsi duymaq bacarığı güclü olsun. Habil Əliyevin ifa etdiyi "Habil segahı"nı dinləyəndən sonra kamançaya çox böyük həvəsim oyandı. Ağdaş musiqi məktəbində ilk kamança müəllimlərim Şahid Abdullayev və Şahin İbrahimovdan dərs aldım. Sonra Asəf Zeynallı adına Musiqi Texnikumuna daxil oldum və həmin təhsil ocağında professor Şəfiqə Eyvazova və professor Rafiq İmraninin sinfində oxudum. Sonra da Konservatoriyada təhsilimi davam etdirdim.

**- Siz çəqanə alətinin yeganə ifaçısısınız. Bir ifaçı kimi bu alətin imkanlarından danışardınız.**

- Min ilə qədər tarixə malik olan bu alət Azərbaycanın Şirvan bölgəsində saray aləti formasında yara-

nıb. O dövrlərdə çox məşhur alət olub. Bizim klassik şairlərin əsərlərində də çəqanə aləti haqda məlumat var. Amma sonra bu alət yoxa çıxıb. Çəqanə və onun timsalında digər qədim alətlərimizin üzə çıxarılmasında professor Məcnun Kərimovun çox xidmətləri var. İlk dəfə Məcnun müəllim mənə bu aləti göstərəndə çox xoşum gəldi. Quruluş etibarı ilə çanağı saza bənzəyir. Üzü taxtadır. Səsi kamançadan daha gurdur. Kamança ilə bərabər çəqanəni də iştirak etdiyim beynəlxalq simpoziumlarda, konfranslarda göstərmişəm. Konsertlərdən fərqli olaraq simpozium və konfranslarda musiqi biliciləri olur ki, təqdim olunan alətləri qiymətləndirirlər. Sizə bu il sentyabr ayında Fransada keçirilən beynəlxalq konfransdan danışım. Biz ora qədim alətlərimizi, eləcə də çəqanəni aparmışdıq. İnanın, hamı şoka düşmüşdü. Biz bildirdik ki, bunlar bizim milli alətlərimizdir və onlar Azərbaycan musiqisinin nə qədər dərin, nə qədər təkmil olduğunu sübut edir. Orda çox alətlər var idi, amma həmin alətlərin çəqanə kimi imkanları yox idi. Fikrimcə, bu cür beynəlxalq konfranslar alətlərimizin dünyaya tanıdılması yönümündə çox işlər görür. Çünki konfranslardan sonra orda olan çıxışlar kitab halında çap olunur, CD vasitəsilə yayılır, saytda yerləşdirilir. Bundan başqa 2000-ci ildə Şotlandiyanın Edinburq şəhərində keçirilən "Simli və Kamanlı Musiqi Alətləri" üzrə Beynəlxalq Simpoziumda, 2002-ci ildə Qazaxıstanın Alma-Ata şəhərində qazax xalqının böyük musiqiçisi Bolat Sarıbayevin şərəfinə təşkil olunan Müasir Etnorqanologiya Üzrə Beynəlxalq Elmi Konfransda kamança və çəqanə alətini nümayiş və təbliğ etmişəm.

**- Sadaladıqlarınız alətlərimizin dünyada tanıdılmasına xidmət edirdi. Gələk Azərbaycana. Ölkəmizdə kamançanın təbliği aydındır. Çəqanənin isə yeganə ifaçısı siz olduğunuzdan, onun təbliği məhz sizin öhdənizə düşür.**

- Bu neçə ildə bu alətin təbliği üçün əlimdən nə gəlir edirəm. Ancaq hələ ki, çəqanə alətini tədris eləmirəm. Gələcəkdə ola bilsin ki, tədrisə salınsın. Əslində, salınmalıdır da.

**-Siz həm də ney-kaman alətinin ixtiraçısısınız...**

- Mən ney alətini çox sevirəm. Neyin səsinə vurğunam. Onun səsi ilahi bir səsdir. Həmişə fikirləşirdim ki, görəsən neyin səsini kamançada da almaq olarmı? Tələbə idim, Asəf Zeynallıda oxuyurdum, yay gecələrinin birində yuxudan ayıldım. Yuxuda elə bil mənə dedilər ki, dur kamançanı sök, 1-ci simi 3-lə, 2-ni 4-lə birləşdir və kamanı çək. O səs alındı. Hətta biz kamançadan kənarda başqa bir alət kimi düzəltdik, amma xoşuma gəlmədi və məni bir az həvəsdən saldı. Sonra Pənah Göyçəliyə müraciət etdim və bu alət ərsəyə gəldi. Həm neyin səsi alınır, həm də zil-bəm aktava səsləri, birinci- ikinci simlərdə kamançanın öz səsi də alınır. Alət altı simlidir. Quruluşu kamançaya oxşayır.

**- Sizin də yaradıcılarından biri olduğunuz Qədim Milli Musiqi Alətləri Dövlət Ansamblı artıq uzun müddətdir ki, fəaliyyət göstərir. İlk öncə qeyd edim ki, qədim alətlərimizi bu ansamblda cəm etmək maraqlı ideyadır. Hazırda ansamblın işləri nə yerdədir?**

- Belə bir ansamblın yaradılması ideyası Məcnun Kərimova məxsus idi. İlk əvvəl kiçik bir kollektivlə yarandı. Sonradan ikimiz bu işi canlandırdıq. Çıxışlarımızı görən ümummilli lider Heydər Əliyev sərəncam verdi ki, bizə dövlət statusu adı verilsin. Ansamblın bu gün yaşamasının əsasını o qoydu. Tez -tez xarici səfərlərdə oluruq, konsert proqramları ilə çıxış edirik. Son dövrlər qopuz alətini ansambla gətirmişik. Hazırda mən ansamblın konsertmeystri, solisti, oranjemançısı və müşayiətçisiyəm.

**- Musiqi tərtibatçısı kimi ansamblda hansı mahnılara üstünlük verirsiniz?**

- Milli musiqilərimizi və alətlərimizi üzə çıxarmaq, mühafizə etmək və gələcək nəsillərə çatdırmaq üçün ansamblın xidmətləri çox böyükdür. Qədim türk əsərləri, Əbdül Qadir Marağayinin "Heydərnamə", "Naxışbəstə", Səfiyəddin Urməvinin, həmçinin qədim musiqilərimiz və hərdən bir müasir bəstələri də ifa edirik.

**- Əksər ölkələrdə xarici tələbələrə usta dərsləri də keçmisiniz. Səhv etmirəmsə hətta İndiana Universitetinin Fəxri Professoru adına layiq görülmüsünüz. Həmin ölkələrdə bizim alətlərə münasibət necədir, tələbələrə çətin olmur ki, bizim alətlərdə ifa etmək?**

- 2004-cü ildə İndiana Universiteti, Viskonsin Universiteti və Ohayo Dövlət Universitetində usta sinifləri keçdim. Həmçinin ABŞ-ın Bloominqton şəhərindəki, professor Şahyar Daneşgarın rəhbərlik etdiyi İpək Yolu Ansamblının tərkibində ABŞ-ın bir çox şəhərlərində çıxış edərək, Azərbaycanın milli musiqisini və milli alətimiz olan kamançanı yüksək səviyyədə nümayiş və təbliğ etdim. Onlar məni internet vasitəsilə tapdılar və dəvət etdilər. Amerikadan başqa Fransada da, 2 ilə yaxın İranda da tələbələrə dərslər keçmişəm. Xarici tələbələrə usta dərsləri vermək çox maraqlıdır. Orda skripka sinfində oxuyan tələbələrə kamançada ifa etmək oqədər də çətin gəlmədi. Ümumiyyətlə, tələbələrdə Şərq musiqisini, ələlxüsus da Azərbaycan musiqisini dərindən öyrənmək istəyi çox güclüdür. Siz təsəvvür edin ki, amerikalı tələbə "Bayati- Şiraz" çalırdı, bunu seyr etmək necə də xoşdur...

**● M.NƏRMİN**